# Qərbi Azərbaycan soyqırımları gürcü mənbələrində

***Arxiv materialları 1905–1906-cı illərdə milli zəmində qarşıdurma zamanı erməni silahlı dəstələrinin dinc azərbaycanlı əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq göstərdiklərini, kütləvi qətllər törətdiklərini təsdiqləyir. Belə mənbələrdən biri Gürcüstan Mərkəzi Tarix Arxivində – Qafqazda polis müdirinin dəftərxanasının 1905–1906-cı illərə aid rəsmi sənədlərinin toplandığı fondda saxlanılan "Ermənilər və müsəlmanlar arasında silahlı toqquşmalar haqqında canişinə hesabat məruzəsi" adlı qovluqdur [fond 83, siyahı 1, iş № 32]. Hesabat–məruzəsində Qərbi Azərbaycan mahallarında – 1905-ci il sentyabrın 20-də Pəmbək mahalında, oktyabr ayının sonlarında isə Dərələyəz və Zəngəzurda azərbaycanlı əhalinin qətliamına dair məlumatlar öz əksini tapmışdır.***



## Cəngi (Pəmbək) faciəsi

Aleksandropol (Gümrü) qəza rəisinin müvafiq inzibati dairələrə ünvanladığı 21 sentyabr 1905-ci il tarixli teleqramda həmin ilin sentyabr ayının 20-də arabalarla çörək dalınca ermənilərin yaşadığı qonşu Cəngi kəndinə gedən Pəmbək mahalının Qursalı, Saral və Arçut kəndlərinin 27 tatar (azərbaycanlı) sakinindən yalnız 4 nəfərin geri qayıtdığı, qalanları haqqında isə heç nə bilinmədiyi və mahalın azərbaycanlı kəndlərinin həyəcan içində olduğu barədə məlumat verilirdi. Sonradan Cəngiyə gedənlərin Qursalı, Xancığaz və Gözəldərə kəndlərinin sakinlərindən ibarət olduğu məlum olur. Qəza rəisi baş verənlərə aydınlıq gətirmək üçün hadisə yerinə yola düşür. Eyni zamanda oraya Aleksandropol qarnizonundan 1 eskadron draqun (xüsusi atlı qoşun hissəsi) göndərilir. Sentyabrın 24-də eskadron Cəngiyə yetişir və dərhal istintaq tədbirlərinə başlanılır. İşlə bağlı maddi sübutlar əldə olunur və 25 erməni həbs edilir.

İlkin əməliyyat tədbirləri nəticəsində Cəngi kəndinin yaxınlığındakı quyunun 14 arşın (təqribən 10 metr) dərinliyində eybəcər hala salınmış, bəzilərində güllə izləri olan 19 kişi və 1 qadın cəsədi tapılır. Bu cəsədlərin Qursalı, Xancığaz və Gözəldərə kəndlərinin "itkin düşmüş tatar" sakinləri olduğu aşkar edilir. Quyu qazılan zaman cəsədlərin üzə çıxarılacağından təşvişə düşən Cəngi ermənilərinin çoxu kənddən qaçır. Dindirilən Cəngi sakinlərinin ifadələrindən məlum olur ki, azərbaycanlılar kəndə gəlməzdən bir qədər əvvəl 12 erməni silahlısı dükançı Sumbat Krikorovun evinə gəlir. Qonşu xəyanəti ilə üzləşə biləcəklərini təsəvvürlərinə belə gətirə bilməyən sadəlövh azərbaycanlı-türk kəndlilər Cəngiyə çatarkən 40 nəfərlik silahlı dəstə tərəfindən mühasirəyə alınır, üstlərində gəzdirdikləri xəncər-bıçaqları əllərindən alınır və Cəngi sakini Arşak Barseqovun evində nəzarət altında saxlanılırlar.

Axşam düşəndə cəngili ermənilər Arşak Barseqovun evində saxlanılan girovları pristavla kəndxudanın kəndə gəldiyini bildirərək aldadırlar. Onlarla barışığa dair sənəd imzalamaq üçün aralarından nüfuzlu, hörmətli şəxsləri seçib Sumbat Krikorovun dükanına göndərmələri istənilir. Sumbatın dükanına Tanrıverdi Vəli oğlunu və Məhəmməd Qurban oğlu göndərilir. Çox keçmədən girovlar həyətdən Tanrıverdinin və Məhəmmədin öldürülməmələri barədə yalvarışlarını eşidir və qapıları sındırıb qaçmaq istəyirlər. Lakin Əlləz Mustafa oğlu, Tahar Məhəmməd oğlu və Bünyad Qasım oğlundan başqa heç kəs yaxasını qurtara bilmir, hamısı vəhşicəsinə öldürülür.

Pəmbəkin Saral kəndinin sakinləri bu qətliamı törədənlərin cəzalandırılmayacağı təqdirdə intiqam alacaqlarına and içirlər.

Barseqovun evindən qaça bilmiş girovlar istintaq prosesində hadisədə iştirak edən 21 Cəngi ermənisini tanıyırlar. Bu ermənilər tutularaq İrəvan həbsxanasına göndərilirlər. Dükançı Sumbat Krikorov isə qaçıb cəzadan yaxasını qurtarır.

## Dərələyəz və Zəngəzur qətliamları

Qovluqdakı arxiv materiallarından məlum olur ki, 1905-ci il oktyabrın 27-də Şərur-Dərələyəz qəzasının 6 erməni kəndindən yığılmış 700 nəfərlik silahlı dəstə azərbaycanlılar yaşayan Hors kəndinə hücum etmiş, 40 nəfər dinc sakini qətlə yetirmiş, evləri qarət edərək yandırmış və malqaraları özləri ilə aparmışdır. Bu arxiv sənədində üç gün sonra ermənilərin yenidən Horsa hücum edib qadın və uşaqlar daxil olmaqla 53 nəfəri öldürdüyü, 255 evi yandırdığı da qeyd olunur.

Bu ərəfədə Zəngəzur qəzasının 10 erməni kəndinin silahlı sakinləri qəzanın "tatarlar" yaşayan Sisyan kəndinə hücum edirlər. Arxiv sənədlərinə əsasən hücum zamanı 75 nəfər, "Haraç" erməni qəzetinə istinad edən "Novoye obozreniye" qəzetinin 12 yanvar 1906-cı il nömrəli buraxılışında yaydığı xəbərə görə isə 190 nəfər Sisyan sakini öldürülür və yaralanır. Yenə "Novoye obozreniye"nin yaydığı xəbərlərdən 1905-ci ilin sonlarında Zəngəzurun Darbaz (Dərəbas) kəndində 278, Kürtlər kəndində isə 120 azərbaycanlı sakinin ermənilər tərəfindən qətlə yetirildiyi məlum olur.

## Şahalı (Cənubi Borçalı) qırğını

Gürcüstan Mərkəzi Tarix Arxivində, Tiflis Dairə Məhkəməsi prokurorunun sənədlərinin cəmləşdiyi fondda saxlanılan Borçalı qəzasının Lori (Loru) nahiyəsi pristavının protokolunda [fond 115, siyahı1, iş № 522] qeyd olunur ki, 1905-ci il noyabrın 27-də 35 nəfər silahlı erməni Cənubi Borçalıda – Lori nahiyəsinin Şahalı (Şaqal) stansiyasında yerləşən Allahverdi-Elyar misəritmə zavodunu əvvəlcə mühasirəyə alır, sonra binaya daxil olub səlməslı Lütfəli Fətəli oğlunu güllələyirlər. Əslən Cənubi Azərbaycandan olan digər fəhlələr Salman Fətəli oğlu, Əli Qafar oğlu, Əli Mərdanbəy oğlu, Allahverdi Cəfər oğlu, Cabbar Mustafa oğlu və Murad oğlunu (adı bilinmir) isə meşədə naməlum istiqamətə apararaq vəhşicəsinə öldürürlər. Protokoldan məlum olur ki, bu cinayətkar dəstənin üzvləri Lütfəli Fətəli oğlunun meyitini də özləri ilə meşəyə götürüb orada yandırırlar. Daha sonra onlar Həbib Murad oğluna məxsus 24 baş qoyunu da aparırlar.

Ermənilərin zavodda törətdikləri cinayət hadisəsi barədə Tiflisdə gürcü dilində nəşr olunan "Tsnobis purtseli" qəzetinin 8 dekabr 1905-ci il tarixli sayında daha dəqiq və ətraflı məlumat verilirdi. "Borçalıda toqquşma" başlığı altında dərc olunmuş məlumatda fransızların Borçalı qəzasının Şahalı kəndində yerləşən misəritmə zavoduna ermənilərin hücum etdikləri və iki azərbaycanlı fəhlənin zavodun içində, 14 nəfərin isə meşəyə aparılıb qətlə yetirildiyi qeyd olunurdu. Qəzet zavod sahibinin Fransanın Tiflisdəki konsulluğuna müraciət etdiyini və nəticədə məsələni araşdırmaq üçün konsulluğun katibi Eberin hadisə yerinə yollandığını da yazırdı.

"Tsnobis purtseli" qəzetinin növbəti nömrəsində fransızların cəmiyyətinə məxsus Şahalı-Elyar zavodunun sahibləri Tomit Franq və Emil Kabalın misəritmə zavodunda baş verən hadisə barədə söylədikləri təfərrüatı ilə dərc olunmuşdu. Zavod sahiblərinin dediklərindən məlum olurdu ki, noyabrın 26-sı axşam 130 nəfər erməni fəhlə (zavodda cəmi 150 fəhlə işləyirdi) hər şənbə aldıqları pullarını da istəmədən işdən çıxıb gedir. Erməni fəhlələrin bu qəribə hərəkəti zavodda işləyən azərbaycanlıları və rusları düşünməyə vadar edir və onlardan da bəziləri haradasa gizlənir. Zavodda 1 gürcü gözətçi və 16 azərbaycanlı qalır. Səhəri gün 60-dan çox silahlı erməni zavoda gəlir və atəş açmağa başlayırlar. Ermənilər binadan çıxanları öldürəcəkləri ilə hədələsələr də, müəssisənin sahibi onların qarşısına çıxaraq atəşi kəsmələrini xahiş edir və əvəzində nə istəsələr, onu verəcəyini bildirir. Bu dəstəyə başçılıq edən 26-28 yaşlı, Avropa geyimində, köynəyi kraxmallı erməni onun sözlərinə məhəl qoymur və silahlılar zavoda soxulurlar. Azərbaycanlı fəhlələr isə zavoddan çıxıb meşəyə qaçırlar. Ermənilərin bir hissəsi onların dalınca gedir. Müəssisədə 75 yaşlı bir azərbaycanlı kişi və bir də azərbaycanlı qadın qalır. Qocanı bir neçə nəfər xəncərlə öldürür, illərlə yığdığı və üstündə saxladığı 500 rublu götürürlər. Ermənilər azərbaycanlı qadını özləri ilə aparmaq istəyirlər, lakin zavod sahibinin müdaxiləsindən sonra qadını saxlamaq mümkün olur. Bir müddət sakitlik olur, sonra yenə tüfəng səsləri eşidilir. Ermənilər meşədə gizlənməyə çalışan azərbaycanlı fəhlələri də güllələyirlər. Bir yaralı fəhlə meşədən qayıdıb zavodda daldalanmağa çalışır, lakin təqib edənlər gəlib onu da öldürürlər. Noyabrın 28-də erməni fəhlələr zavoda gələrək əşyalarını yığıb həmişəlik gedirlər.

Misəritmə zavodunda baş vermiş qətliama rus dilində dərc olunan "Tiflisski listok" qəzeti də öz səhifələrində yer ayırmışdı.

Arxiv sənədləri göstərir ki, həmin dövrdə ermənilərin azərbaycanlılarla bərabər başqa millətlərə, o cümlədən ruslara qarşı da zorakılıq əməllərinin həddi-hüdudu yox imiş. O dövrdə Rusiya imperiyasının işğalı altında olan Qars vilayətinin hərbi qubernatoru bildirirdi ki, 13 sentyabr 1905-ci ildə 12 nəfər silahlı ermənidən ibarət quldur dəstəsi Şürəgəl nahiyəsinin Odintsovo kəndinin sakini Yakov Jukovun at furqonunu saxlamış, onun boynunu kəndirlə bağlamış və kəndirin bir ucunu furqonun təkərinə bərkidərək atları sürmüşdür. Jukov yalnız kəndirin təkərə sürtünərək tez qırılması nəticəsində sağ qalmışdır.

Yuxarıda təqdim olunan insanlıq çərçivəsinə sığmayan tükürpədici faktlar ermənilərin Qafqaz mədəniyyətinə və mənəviyyatına yad bir xalq olduqlarını, eləcə də XX əsrdə Qafqaz coğrafiyasında ilk kütləvi qətllərin və qırğınların məhz onlar tərəfindən törədildiyini bir daha təsdiqləməkdədir.

***Fəxri VALEHOĞLU,***
***tarix elmləri doktoru,***
***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Şərqi Avropa şöbəsinin müdiri***